# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 417** **Bakı şəhəri, 22 noyabr 2022-ci il**

***Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin nəzdində təsərrüfathesablı De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsinin adının dəyişdirilməsi və "Azərbaycan Respublikası Təhsil Nazirliyinin nəzdində təsərrüfathesablı De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 13 yanvar tarixli 5 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin nəzdində təsərrüfathesablı De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində Uşaqların Müdafiəsi İdarəsi adlandırılsın.

**2.** "Azərbaycan Respublikası Təhsil Nazirliyinin nəzdində təsərrüfathesablı De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 13 yanvar tarixli 5 nömrəli Qərarının (Azərbaycan Respub-likasının Qanunvericilik Toplusu, 2010, № 1, maddə 51) 2-ci hissəsindən və 3.2-ci bəndindən "De-institutlaşma və" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti .- 2022.- 25 noyabr.- S.6.